Azərbaycan Respublikasının
**Milli Məclisi**

Azərbaycan Respublikası
Milli Məclisin VII çağırış deputatı

# ŞAHİN SEYİDZADƏ

**2024 - 2025-ci illər üzrə fəaliyyət dövrünə dair**

# HESABAT



# ÖN SÖZ

2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi, dövlətçiliyimizin möhkəmlənməsi və tarixi uğurların əldə edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. İl ərzində aparılan geniş islahatlar, iqtisadi və sosial sahələrdə əldə olunan nəticələr Azərbaycan dövlətinin inkişaf dinamikasının yeni mərhələyə keçdiyini bir daha təsdiqləmişdir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə gerçəkləşdirilən irimiqyaslı bərpa-quruculuq layihələri, yeni yaşayış məntəqələrinin salınması və əhalinin mərhələli şəkildə doğma yurdlarına qayıdışı dövlətimizin gücünü, siyasi iradəsini və strateji hədəflərə sadiqliyini nümayiş etdirir.

Milli Məclis də bu mühüm proseslərdən kənarda qalmamış, qəbul edilən qanunlar və təsdiqlənən sosial-iqtisadi sənədlər vasitəsilə dövlət siyasətinin daha effektiv həyata keçirilməsinə dəstək vermişdir. Bu məqsədlə müzakirələrə çıxarılan qanun layihələri həm ictimai tələblər, həm də ölkə rəhbərliyinin müəyyən etdiyi strateji xətt nəzərə alınmaqla hazırlanmışdır.

Seçicilərdən daxil olan müraciətlər diqqətlə araşdırılmış, hər bir məsələ ilə bağlı müvafiq dövlət qurumları ilə əməkdaşlıq edilmiş və problemlərin həllinə yönəlmiş addımlar atılmışdır.

Milli Məclisdə Mədəniyyət, Elm və Təhsil komitələrinin üzvü kimi komitə iclaslarında aktiv iştirak edilmiş, təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi, elm sahəsində innovativ yanaşmaların tətbiqi, milli-mənəvi irsin qorunması və mədəniyyət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində bir sıra təkliflər irəli sürülmüşdür. İclaslar, dinləmələr və müzakirələr zamanı ölkənin gələcək inkişafına töhfə verəcək təşəbbüslərlə çıxış edilmişdir. Bu baxımdan xüsusi vurğulanmalıdır ki, cari tədris ilində Qobustan rayonunda İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin Qobustan korpusu istifadəyə verilmişdir. Beləliklə, Qobustanda müasir peşə təhsili sistemi formalaşmış, gənclərin əmək bazarında tələb olunan ixtisaslara yiyələnməsi üçün geniş imkanlar yaradılmışdır. Bu addım həm gənclərin gələcək peşə perspektivlərinə, həm də rayonun sosial-iqtisadi inkişafına mühüm töhfə verir.

Beynəlxalq parlament əməkdaşlığı çərçivəsində Azərbaycan–Kamboca parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olaraq, Kambocanın Phnompen şəhərində Kamboca-Azərbaycan Dostluq Qrupunun rəhbəri ilə iki tərəfli görüşlər keçirilmiş və ASEAN Parlamentlərarası Assambleyasının təşkil etdiyi 16-cı AIPA Caucus toplantısında iştirak edilmişdir. Həmçinin Milli Məclisin Azərbaycan–Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi Estoniyada Parlament və digər dövlət qurumları ilə görüşlər keçirilmiş, iki ölkə arasında əməkdaşlığın inkişafına dair müzakirələr aparılmışdır. Bu görüşlər parlament diplomatiyasının gücləndirilməsinə, beynəlxalq müstəvidə Azərbaycanın mövqeyinin daha geniş tanıdılmasına və qarşılıqlı əməkdaşlığın yeni istiqamətlər üzrə inkişafına xidmət etmişdir.

Regionun ictimai həyatında fəallıq gücləndirilmiş, sosial-iqtisadi məsələlərin gündəmə gətirilməsi və mediada işıqlandırılması istiqamətində ardıcıl fəaliyyət həyata keçirilmişdir. İnformasiya platformalardan və sosial şəbəkələrdən istifadə olunmaqla görülən işlərin şəffaflığı təmin edilmişdir.

Dərin hörmətlə,  
Milli Məclisin deputatı  
**Şahin Seyidzadə**

# Vətəndaşlarla iş*

## Müraciətlərin sayı: 806

### Müraciətlərin istiqamətləri




### Sosial şəbəkə

| | |
|---|---|
| **Qəbul** | **619** |
| **WhatsApp** | **51** |
| **Məktub** | **45** |
| **Zəng** | **74** |
| **Sosial şəbəkə** | **17** |

* bütün göstəricilər 2024 - 2025-ci illər üzrə fəaliyyət dövrünə dair təqdim olunub

# Vətəndaş qəbulları*

**42** səyyar

## Qobustan

**Qobustan şəhəri**
Qobustan şəhəri, Sündü, Təklə, Poladlı, Yekəxana, Cəmcəmli, Sədəfli və Dərəkənd kəndləri üzrə

**Sündü kəndi**
**Sündü, Nabur, Bəklə, Çəyirli, Çalov** və Xilmilli kəndləri üzrə

**Ərəbqədim kəndi**
Ərəbqədim, Şıxzahırlı, Göydərə, Dərəkənd və Nardaran kəndləri üzrə

**Cəngi kəndi**
Cəngi, Bədəlli, Poladlı, Çalov və Qaracüzlü kəndləri üzrə

**Təklə kəndi**
Təklə, Ərəbşalbaş, Sündü və Çəyirli kəndləri üzrə

**Cəmcəmli kəndi**
Cəmcəmli və Sədəfli kəndləri üzrə

**Bədəlli kəndi**
Üzümçü qəsəbəsi, Bədəlli və Sədəfli kəndləri üzrə

**Ərəbşalbaş kəndi**
Ərəbşalbaş, Təklə, Çuxanlı və Cəmcəmli kəndləri üzrə

**Qobustan şəhəri**
Qobustan şəhəri, Dərəkənd və Ərəbşalbaş kəndləri üzrə

**Çuxanlı kəndi**
Çuxanlı, Təklə Mirzəbaba və Sündü kəndləri üzrə

**Şıxzahırlı kəndi**
Şıxzahırlı, Ərəbqədim, Poladlı, Yekəxana, İlanlı, Cəngi və Ceyrankeçməz kəndləri üzrə

**Dərəkənd kəndi**
Dərəkənd kəndi üzrə

**Yekəxana kəndi**
Poladlı, Yekəxana və Təsi kəndləri üzrə

**Xilmilli kəndi**
Xilmilli, Çəyirli və Sündü kəndləri üzrə

## Şamaxı

**Sabir qəsəbəsi**
Sabir qəsəbəsi, Mərzəndiyə və Çıraqlı kəndləri üzrə

**Dəmirçi kəndi**
Y.Məmmədəliyev qəsəbəsi, Dəmirçi, Avaxıl, Səfalı və Zarat Xeybəri kəndləri üzrə

**Quşçu kəndi**
Aşkar qəsəbəsi, Quşçu, Birinci Çaylı və Laləzar kəndləri üzrə

**Qızmeydan kəndi**
Qızmeydan, Hacılı, Əhmədli və Pirbəyli kəndləri üzrə

**Mərzəndiyə kəndi**
Mərzəndiyə kəndi üzrə

**Avaxıl kəndi**
Y. Məmmədəliyev qəsəbəsi və Avaxıl kəndi üzrə

**Birinci Çaylı kəndi**
Birinci Çaylı kəndi üzrə

**Çıraqlı kəndi**
Çıraqlı kəndi üzrə

**Zarat Xeybəri kəndi**
Zarat Xeybəri kəndi üzrə

**Əhmədli kəndi**
Əhmədli və Hacılı kəndləri üzrə

**Səfalı kəndi**
Səfalı kəndi üzrə

**Mərzəndiyə kəndi**
Mərzəndiyə kəndi üzrə

**Y.Məmmədəliyev qəsəbəsi**
Y.Məmmədəliyev qəsəbəsi, Avaxıl və Sis kəndləri üzrə

**Laləzar kəndi**
Quşçu, Birinci Çaylı və Laləzar kəndləri üzrə

## İsmayıllı

**Tircan kəndi**
Tircan və Maçaxı kəndləri üzrə

**Lahıc qəsəbəsi**
Lahıc qəsəbəsi, Müdrü, Həftəsov, Candahar, Yuxarı Cülyan, Namazgah, Qoydan, Ərəgit, Əhən, Brovdal və Dvoryan kəndləri üzrə

**Basqal qəsəbəsi**
Basqal qəsəbəsi, Bizlan, Sulut, Mücü, Kələzeyvə, Kəlfərəc, Zərgəran və Tağlabiyan kəndləri üzrə

**Aşağı Zərnava kəndi**
Aşağı Zərnava kəndi üzrə

**Təzəkənd kəndi**
Təzəkənd, İkinci Yeniyol, Qaraqaya və Gəndov kəndləri üzrə

**Tağlabiyan kəndi**
Tağlabiyan, Mücü və Kəlfərəc kəndləri üzrə

**Sulut kəndi**
Sulut, Kələzeyvə, Sərsurə və Qıçatan kəndləri üzrə

**Həftəsov kəndi**
Həftəsov, Çandahar və Zarat kəndləri üzrə

**Zərnava kəndi**
Zərnava kəndləri üzrə

**Müdri kəndi**
Müdri, Vaşa və Müdrisə kəndləri üzrə

**Yeniyol kəndi**
Yeniyol kəndi üzrə

**Əhən kəndi**
Əhən kəndi üzrə

**Qaraqaya kəndi**
Qaraqaya və Gəndob kəndləri üzrə

**Tircan kəndi**
Tircan və Maçaxı kəndləri üzrə

* bütün göstəricilər 2024 - 2025-ci illər üzrə fəaliyyət dövrünə dair təqdim olunub

# İctimai fəaliyyət*

- Böyük Qafqazın Başdağ silsiləsinə daxil olan Heydər Əliyev zirvəsinə yürüş;
- Azad Mirzəcanzadə İnkişaf Proqramının mentoru;
- Bakı şəhəri Qaradağ Gənclər Evində gənclərlə görüş;
- Qobustan rayonunda 2025-ci ilin məzunları olan gənclərlə görüş;
- Yüksəliş müsabiqəsinin qalibləri ilə mentorluq proqramı çərçivəsində görüşlər;
- Milli Məclisin təşkilatçılığı ilə Dövlət Suverenliyi Günü münasibətilə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə yürüş;
- Şamaxı rayonunda Seyid Əzim Şirvaninin anadan olmasının 190 illiyinə həsr edilmiş tədbirdə iştirak;
- Qobustan rayonunda 8 noyabr Zəfər günü münasibəti ilə keçirilən tədbirdə iştirak;
- Azərbaycan Universitetində “Konstitusiya və Suverenlik ili” çərçivəsində keçirilən elmi konfransda iştirak;
- Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində Seyid Əzim Şirvaninin anadan olmasının 190 illiyinə həsr edilmiş tədbirdə iştirak;
- İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin Qobustan korpusunda gənclərlə görüş;

# Beynəlxalq fəaliyyət*

- Kambocanın Phnompen şəhərində Kamboca–Azərbaycan Parlament Dostluq Qrupunun rəhbərilə görüş;
- Kambocanın Phnompen şəhərində keçirilən ASEAN Parlamentlərarası Assambleyasının təşkil etdiyi 16-cı AIPA Caucus toplantısında iştirak;
- Almaniyanın Azərbaycandakı Səfirliyi tərəfindən təşkil olunan Alman Birliyi Günü münasibətilə keçirilən tədbirdə iştirak;
- Meksikanın Azərbaycandakı Səfirliyi və Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən təşkil olunan “Dieqo Rivera: Daha yaxşı gələcəyin vədi” adlı sərginin açılışda iştirak;
- Türkiyə Respublikasının səfirliyi tərəfindən təşkil edilən Cümhuriyyətin 102-ci ildönümünə həsr olunmuş tədbirdə iştirak;
- Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransı çərçivəsində ölkəmizdə səfərdə olan Kamboca Krallığı Milli Assambleyasının nümayəndə heyətilə görüş;
- Kamboca–Azərbaycan Parlament Dostluq Qrupu tərəfindən 8 noyabr Zəfər günü münasibətilə təbrik məktubu;
- Kamboca–Azərbaycan Parlament Dostluq Qrupunun rəhbərinə Kamboca Krallığının milli bayramı–Müstəqillik Günü münasibətilə təbrik məktubu;
- Azərbaycan–İsrail Ticarət Evinin açılışında iştirak;
- Estoniyada Parlament və digər dövlət qurumları ilə görüş;

* təqdim olunmuş məlumat 2025-ci ilin iyul-dekabr ayları üzrə fəaliyyət dövrünə dair təqdim olunub

# Kommunikasiya*

| Müsahibələr və məqalələr | Sosial şəbəkələrdə ümumi paylaşım |
|---|---|
| 553 | 530 |

| Sosial şəbəkələrdə ümumi baxış | Məlumatlandırma mesajları |
|---|---|
| +1525000 | +400000 |

* bütün göstəricilər 2024 - 2025-ci illər üzrə fəaliyyət dövrünə dair təqdim olunub
















Əlaqə vasitələr: / Shahin Seyidzade

050 600 25 50 seyidzade.az 87@seyidzade.az